Bülbül - 120

# Azərbaycanın Bülbülü

## Müsəlman aləmindən İtaliyada təhsil alan ilk vokalçı



**Vidadi BƏŞİROV,**
*Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*

Azərbaycan professional vokal sənətinin banisi, görkəmli müğənni və pedaqoq, professor Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədovun) bu il 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti 11 may 2017-ci il tarixində 2847 nömrəli sərəncam imzalayıb. Sərəncamda deyilir: "Böyük sənətkar Bülbül zəngin yaradıcılıq yolu keçmiş və özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoymuşdur. Onun Şərqlə Qərbin musiqi ənənələrinin qovuşuğunda novatorcasına yüksək məharətlə canlandırdığı rəngarəng obrazlar ifaçılıq sənətinin bənzərsiz nümunələridir. Milli musiqi xəzinəsi incilərinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasında Bülbülün müstəsna xidmətləri vardır".

### Dahi sənətkara böyük sevgi

Bülbülün şəxsi əmək, elmi-tədqiqi, pedaqoji, ictimai fəaliyyəti, Azərbaycan musiqi incəsənətinin bütün sahələrinə aid hərtərəfli və müxtəlif növ yaradıcılıq imkanlarını ifadə edən bu müdrik kəlamlardan da göründüyü kimi, o, nəhəng musiqiçi və ictimai xadim olaraq bütün varlığı ilə xalqına bağlı olmuş, yaradıcı ömrünü böyük sənətkarlıq zirvəsi ilə hasilə gətirmişdir. Onun sənəti ölməzdir, yaradıcı şəxsiyyəti əbədiyaşarlıq nümunəsidir. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev onun ifaçılıq manerasına diqqət yetirərək, yaradıcı fəaliyyətinin klassik və müasir ənənələrlə səsləşdiyini xatırlamaqla, bu dahi sənətkara yüksək dəyər verərək söyləmişdi: "Mən Bülbülü sağlığında da sevirdim, onun xatirələrinə də daim böyük sevgi bəsləyirəm".

Ölməz sənətkarın ideya-mənəvi irsi, elmi-pedaqoji fəaliyyəti, dərin ifaçılıq fəhmi bütün zaman kəsiyində aktual və təravətli olmuşdur.

İllər ötüb, zaman dəyişdikcə qədirbilən xalqımız dahi Bülbülün yaradıcılığı haqqında, onun müxtəlif növ sənət və sənətkarlıq keyfiyyətləri barədə yeni, mükəmməl axtarışlar yolu ilə müasir tapıntılarla tanış olmaq imkanı əldə etmiş olur. Məqsəd Azərbaycanın müstəqilliyi şəraitində də bu sehirli səs sahibinin xalq təfəkküründən süzülüb gələn musiqi dünyasındakı pünhan qalan incilərini üzə çıxartmaqla fəxarət hissi keçirib, həyat hekayələrinə yeni mündəricədə dəyər verməkdir.

Bülbül Azərbaycan vokal məktəbinin ilk qaranquşlarından biri olub, professional milli muğam və mahnı ifaçılığının sənət qüdrətini mahir və möhtəşəm səs tembri ilə dünya şöhrəti səviyyəsinə qaldırmış, unikal musiqi mədəniyyətimizin tarixi inkişaf yollarını öz səmərəli elmi-pedaqoji axtarışları ilə müstəsna səviyyədə təkmilləşdirmişdir.

Xüsusən o, Azərbaycanın milli folklor nümunələrindəki el nəğmələrindən, havacatlardan, mahnı və bayatılardan istifadə əzmi ilə dünya vokal ifaçılığının ən orijinal metod və vasitələrindən bəhrələnmək istiqamətində nəzəriyyələr sistemi, praktik tədqiqat bazası yaratmışdır. Bülbülün sənət kəhkəşanında el nəğmələri ilə yanaşı, dünya mədəniyyətinə incilər səpən şedevr mahnılar, klassik, zəngin musiqi ifaçılığına xidmət edən məşhur romans və ariyalar da möhkəm yer tutmuşdur. Bülbül cahanşümul sənətində yorulmaz fəaliyyət nümayiş etdirərək böyük müğənniyə çevrilmişdir.

Bu gün də musiqi mədəniyyəti tarixinin bütün kateqoriyalı janr və üslublarında milli sənət arenası ilə ümumbəşəri siqlətə malik zəngin vokal sənəti vasitələrinin vəhdətini təmin edən bu qüdrətli, yaradıcı fütuhat sahibinin ideya-mənəvi irsindən faydalanmaq ümumxalq və ümumdövlət səviyyəli bir işdir. Xüsusən, böyüyən nəslin sağlam əqidə, milli yaddaş, ümumbəşəri dəyərlərə istinad ruhunda tərbiyələnməsi işində Bülbül yaradıcılığının mühüm rolu vardır.

Bu gün bu sevimli nəğməkarın biçimli, tutarlı mahnılarındakı vətənpərvərlik, hərbi-vətənpərvərlik, tarixi qələbə, zəfər yolu haqqında söyləmiş olduğu aforistik fikirlər, oxuduğu şərqilər bir daha öz sənət qüdrətinin gənc nəslə örnək olası gücünü özündə böyük aydınlıqla ehtiva edir.

### Böyük ifaçı, ustad pedaqoq

Onun mədəni irsinin tariximizdəki yeri müstəsna əhəmiyyətə malik təhsilləndirici mənbədir. Bu peşəkar sənət bilicisinin həyat və yaradıcılıq yolundan bəhs edən dünya şöhrətli musiqişünas pedaqoqların, nəzəriyyəçi-alimlərin fikirləri də dediklərimizə əyani sübutdur. Məsələn, tarixi mənbələrin birində oxuyuruq: "1931-ci ildə İtaliyanın məşhur musiqi jurnalı "Arte-Nostra" Bülbülün şəklini və "Bülbül dell Azerbaijan" adlı məqalə çap etdi. Məqalədə deyilirdi: "Bülbül müsəlman aləmindən İtaliyaya təhsil almaq üçün gəlmiş ilk vokalçıdır. O, spesifik Şərq oxumalarından Avropa oxuma məktəbinə keçmişdir. Maestro Rafele Qrani Bülbülün italyan oxuma məktəbinə, tədris üsuluna mükəmməl yiyələndiyini etiraf etdikdən sonra Bülbül Avropada topladığı bilikləri xalqa çatdırmaq, öz arzusunu - iki məktəbin sintezini həyata keçirmək üçün vətənə təsir. Belə sintezin gözəl sübutu Bülbülün yaradıcılığıdır".

O, sözün həqiqi mənasında Şərq xalqlarının klassik oxuma manerası ilə Qərb intibahının vokal musiqi sənətində təzahür edən ifaçılıq üslublarını dərin və əsaslı fitri istedad gücü ilə əxz edən dünya şöhrətli nəğməkar idi. Onun fədakar əməyi, dərin zəkası, vətənsevər qəlbi daim insanı vəcdə gətirən müqtədir sənət aşiqi kimi xalqına tanıtmışdır. Öz tarixi inkişaf yolunu XIX əsrin sonu, XX əsrin əvvəllərində Qarabağ xanəndələrinin milli ruha, el sədaqətliliyinə, yabançı ünsürlərin ifşasına doğru yönəltmiş ictimai tərəqqi ideyalarında, nəcib əxlaqi keyfiyyətlərində görüb-duyan bu nadir istedad sahibi şaqraq səsi ilə öz müasirlərinin dərin etimadını qazanmaqla, yeni xarakterli etnoqrafik ənənələrə də daim sadiq olmuşdur.

O, tenor səsə malik böyük müğənni, axtarıcılıq səriştəsinə qadir mükəmməl tədqiqatçı, milli musiqi nəzəriyyəsi və tarixinin mahir bələdçisi, eləcə də bu sahədə professional elmi-pedaqoji kadr hazırlığını həyata keçirməyə qabil olan dahi sənətkar idi.

Bülbül 1897-ci il iyunun 22-də Azərbaycanın bir çox böyük şair və musiqiçilərinin, xanəndələrinin, görkəmli şəxsiyyətlərinin vətəni olan Şuşada doğulmuşdur. Tiflisdə opera müğənnilərini dinləyən Bülbül 1921-ci ildə Azərbaycan Konservatoriyasına daxil olur. O, konservatoriyada vokal üzrə təhsil alan ilk azərbaycanlı tələbə idi. Azərbaycan hökuməti Bülbülü 1927-ci ilin noyabrından 1931-ci ilin oktyabr ayınadək Milana (İtaliya) təhsil almağa göndərmişdir. O, 1933-cü ildə vokalçıların Moskvada keçirilən birinci ümumittifaq müsabiqəsinin laureatı adını alan ilk azərbaycanlıdır. Bülbül 1935-ci ildə Azərbaycan SSR-nin əməkdar artisti, 1938-ci ildə isə SSRİ xalq artisti kimi yüksək adlara layiq görülmüşdür. Bülbül vokal üzrə professor olan ilk azərbaycanlıdır. Bülbül Kərəm ("Əsli və Kərəm"), Kor Ərəb ("Şeyx Sənan"), Hersoq ("Riqoletto"), Kavaradossi ("Toska"), Qərib ("Şahsənəm"), Əlyar ("Nərgiz"), Koroğlu ("Koroğlu"), Əsgər ("Arşın mal alan"), Fərhad ("Xosrov və Şirin"), Aslan ("Vətən"), Nizami ("Nizami") obrazlarını çox gözəl ifa etmişdir. 1961-ci il sentyabrın 26-da vəfat etmiş, Fəxri xiyabanda dəfn edilmişdir.

### Vokal ifaçılıq məktəbinə xəlqilik və humanizm gətirmiş ustad

Bir həqiqəti də vurğulamaq yerinə düşər. Sovet dönəmində ideoloji təsir imkanlarına baxmayaraq, bu qüdrətli sənətkar daim öz xalqını düşünmüş, doğulduğu Qarabağ diyarının şəninə dövlət tədbirlərində belə populyar nəğmələr ifa etmiş, muğam və vokal ifaçılıq məktəbinə yeni ab-hava-xəlqilik və humanizm notları bəxş etmişdir. Təbii ki, bu onun Azərbaycana bağlı real arzularından irəli gəlmişdir.

> **"Böyük sənətkar Bülbül zəngin yaradıcılıq yolu keçmiş və özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoymuşdur. Onun Şərqlə Qərbin musiqi ənənələrinin qovuşuğunda novatorcasına yüksək məharətlə canlandırdığı rəngarəng obrazlar ifaçılıq sənətinin bənzərsiz nümunələridir. Milli musiqi xəzinəsi incilərinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasında Bülbülün müstəsna xidmətləri vardır".**

Böyük müğənnimiz Bülbülün məlahətli səsi, şirin və nikbin ifası ilə yanaşı, onun milli təfəkkürə xidmət edən populyar tədqiqatçılıq qabiliyyəti də xalqımızın musiqi mədəniyyəti tarixində müstəsna yer tutur. Onun bu sahədə söz və sənət sələfləri olan dahi Üzeyir bəy Hacıbəylinin, Müslüm Maqomayevin, Cabbar Qaryağdıoğlunun, Sadıqcanın yaradıcılıq və ifaçılıq xəzinəsindən mənimsədiyi nəzəri və təcrübi biliklər xalq ruhu ilə köklənmiş "Azərbaycan xalq musiqisinin əsasları", "Azərbaycan dilinin fonetikası" kimi monumental əsərlərin meydana gəlməsində də önəmli olub, onun bu sahədə uğurlu təşəbbüsündən xəbər verir.

Böyük sənətkarın mahnı və musiqi yaradıcılığı onun ustad müəllim, peşəkar pedaqoq fəaliyyəti ilə də çox bağlıdır. Bu ali keyfiyyət isə ona doğulduğu mühitdən, fitri həvəs və marağından, maariflənməyə olan həssas münasibətindən yaranmışdı.

### Müəllimlik mənəviyyatı onun həyat kredosu idi

Onun tədris poetikası, ustad müəllim dərsləri təkcə didaktik prinsiplər üzərində yox, eyni zamanda kamil vətəndaş hazırlığı, hərtərəfli şəxsiyyət yetkinliyi, bütöv azərbaycançılıq məfkurəsi üzərində kökləndiyindən metodik fəaliyyəti də "Yaxşı insan" konsepsiyasına xidmət etməyi özündə çulğalaşdırdı. Müəllimlik mənəviyyatı onun sanki, həyat kredosu idi. Bu da səbəbsiz deyildi. Axı, böyük həyat təcrübəsi keçmiş, həddən ziyadə ağıllı və müdrik insan olmaq eşqi, onun ifaçılıq qüdrəti ilə bahəm, həm də geniş biliyə malik bir pedaqoq fəaliyyətinə də rövnəqlik bəxş etmişdir.

Onun haqqında yazılan xatirələrin bu kontekstdən dəyərini verən, həyatdan vaxtsız köçmüş xalq artisti, bəstəkar, xor dirijoru Ramiz Mustafayev çox haqlı olaraq yazırdı ki, "...professor Bülbülün dərsləri çox maraqlı keçirdi. Adətən, hər adam 45 dəqiqə dərs keçməli idi. Bülbülün dərsləri o qədər məzmunlu olurdu ki, bir dərs başlayandan axıracan gəlib oturub professorun şirin söhbətlərinə və necə dərs keçməsinə qulaq asardıq. O bizə bir ata kimi yanaşırdı". Məhz, bu gün musiqi nəzəriyyəsi və tarixi, sənət ifaçılığı sahəsində Bülbül sənəti ona görə təkrarolunmazdır ki, o səsin qədrini bilirdi, güclü oxunun səs, tembr çalarlarını qoruyurdu, vokalçılıq nəfəsinə qayğı və yüksək hissiyyatla yanaşırdı. Bu yolun incəliklərini mənimsəmək metodunu, öz xələflərinə və gənc nəslə yüksək humanist hisslər, dərin metodoloji prinsiplər əsasında təlqin edən professor Bülbül uzun müddət müqtədir pedaqoq kimi konservatoriyada vokal fənnindən dərs demişdir.

Azərbaycanın gur səsli Bülbülünü bizdən ayıran cismani yol düz 56 ildir ki, onu sənətsevərlərin, qədirbilən xalqının xatirəsində yaşadır. İnanırıq ki, onun dünyaşöhrətli sənət qalereyası bundan sonra da öz parlaq çalarları ilə bərq vuracaq, gənc nəslə nümunə olub, onları öz incəsənətinin, doğma dilinin, bir də düşmən tapdaqlarında olan doğma ocağı Qarabağ torpağının ehtiraslı təbliği üçün səfərbər edəcəkdir.

Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası təhsil nazirinin 2 avqust 2017-ci il tarixli əmrinə müvafiq olaraq onun Azərbaycan sənətinin inkişafı sahəsində hərtərəfli fəaliyyəti ilə böyüyən nəsli mədəniyyətimizin bizə lazım olan istiqamətdə, multikultural və tolerantlıq dəyərləri zəminində formalaşdırmaq üçün aşağıdakı təkliflərin də nəzərə alınmasını məqsədəuyğun sayırıq.

- İlkin olaraq bu sahədə ecazkarlıq nümunəsi olan "Bülbül ömrü" adlı film-tamaşa çəkilməsini;
- İkincisi, Bülbülün həyat və yaradıcılıq yolunu əks etdirən fotoalbom, illüstrativ materiallar toplusunun tərtib edilməsini;
- Üçüncüsü, Bülbülün "Seçilmiş əsərləri" silsiləsindən bütöv külliyyatın nəşr olunmasını.
- Yubiley ərəfəsində ali və orta ixtisas, peşə və ümumtəhsil müəssisələrində, istehsalat birliklərində rəsmi məna daşıyan döş nişanları, miniatür xatirə təcəssümü olan tanışlıq bukletləri, emblemləri, eləcə də tələbələr üçün nəzərdə tutulan "Bülbül" təqaüdü təsis olunmalıdır.

İnanırıq ki, böyük sənətkar və ustad pedaqoq Bülbülün yaradıcılığına xas olan bütün xüsusiyyətlər bundan sonra da milli və ümumbəşəri dəyərlər zəminindən, novator ideyalar baxımından öyrənilib xalqımızın ümummilli sərvətinə çevriləcəkdir.